**UOT 81 41; 801.7**
**https://doi.org/10.59849/2218-4783.2025.2.143**

**FİRUDİN RZAYEV**

# NAXÇIVAN ƏRAZİSİNDƏKİ PROTOTÜRK TAYFA ADLARININ YARANMASINDA QƏDİM TÜRK LEKSİK VAHİDLƏRİ

*Məqalədə Naxçıvan ərazisi qədim türk tayfa adlı etnooykonimlərin yaranmasında m.ö. VI-I minilliklərlə bağlı leksik vahidlərdən bəhs olunur. Tədqiqatlarda da adı keçən As, Türükkü, Naxər, Kuti və digər türklərlə bağlı qədim türk leksik vahidləri ərazi etnooykonimlərində günümüzə qədər qalmışdır. Bu qədim leksik vahidlər indiyədək Azərbaycan və türk alimləri tərəfindən dövrlərə görə sistemli tədqiq edilməmişdir.*

*Məqalədə qədim Naxçıvan ərazisi oykonimik sistemindəki As+ni, As+qəm+ər, Türk+an, Tirk+eş, Kuti+kan Bor+nax kimi adlardakı qədim leksik vahidlər türk dili lüğətləri əsasında təsdiq edilir. Bu qədim leksik vahidləri daşıyan tayfalar demək olar ki, Naxçıvanın bütün toponimik sistemi oykonim, oronim, hidronimlərində də ilkin variantda təkrarlanır.*

*Bu leksik vahidlərin prototürklərlə bağlı adlarda qalması dilimizin qədimliyini sübut edir. İstər Naxçıvan, istərsə də digər türklərdə bu leksik vahidlər etnooykonimlərdə geniş yer almışdır. Tədqiqat zamanı xalqımızın dil qədimliyini sübut edən yeni elmi nəticələr əldə edilmişdir.*

**Açar sözlər:** *As, Türükkü, Kuti, Naxər, Naxçıvan, etnooykonim, qədim leksik vahidlər.*

**Giriş.** Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan ərazisi, antik müəlliflərin əsərləri və qədim salnamə yazılarında ilkin sivilizasiya mərkəzlərindən biri kimi yer almışdır. Bu tarixi proseslərdə tayfalar və onların ortaq dilləri meydana gəlmiş, bu dil imkanları hesabını tayfa adlı məntəqələr – etnooykonimlər formalaşmışdır. Bu gün ərazi toponimik sistemindəki qədim etnooykonimlərdə əski türk dil formaları və leksik vahidlər ilə yanaşı, etnogenezimiz, mifoloji baxışlarımız da özünü təqdim etməkdədir. Naxçıvan yer adlarında aşkar edilən aşağıdakı yazıyaqədərki dövrün türk sözləri, protoazərbaycanlılara məxsus qədim söz kökləri və şəkilçilər olmaqla, dilimizin əski dövrlərindən günümüzə çatan yazı nümunələridir. Məhz bu leksik vahidlər, eləcə də bunları öz dillərində ümumişlək formada istifadə edən As, Türükkü, Hürrü , Kuti, Lulubəy və s. tayfalar ərazinin qədim Azərbaycan xalqına aid olduğunu birmənalı təsdiq edən dil və tarixi faktlardır.

İstənilən etnooykonimə diqqət etdikdə, dilimiz və onun quruluşunun m. ö. ən azı VIII minillikdə sabitləşmiş dil olduğu tarixi mənbələr və oykonimlərdəki dil quruluşları əsasında tam təsdiq edilir. Bu fikrimizi m.ö. VIII-I minilliklərə aid As+qəm+ər, As+ni, As+ti, Xu+nax, Bor+nax, Türk+an, Tirk/Türk+eş, Kuti+kan, Kuti+il+tavr kimi yüzlərlə etnooykonimlərdəki **qam** – "şaman", **ər** – "igid, ər", **bor/böri** – "qurd", **ni** – "verdi", **ti** – "tikmək", **xu/ku** – "şöhrətli", **kan** – "məkan, yurd" kimi qədim türk leksik vahidlər də sübut edir.

**Tayfa adlarının yaranmasında leksik vahidlər.** Xüsusi olaraq qeyd edək ki, türk tayfa adlarının formalaşmasında yer alan qədim leksik vahidlər adlarda bu tayfaların dil formasını da özündə əks etdirir. **As/Asər** türkləri tədqiqatlarda geniş araşdırılmış, onların adının mənbələrdə özbək, altay, qaraqalpaq boyları arasında, Göy-Türk, Orxon-Yenisey yazılarında yayıldığı qeyd edilməklə, başqırdlar arasında **as, assı** (əsərdə başqort-katay kimi verilir) adında, Qaraçay-Çərkəz ölkəsində, Orta Asiyada, Sırdərya ətrafında isə, **As** kimi yayıldıqlarını göstərmişdir [2, s. 12-19]. Biz tədqiqatlarımızda bu türklərin Azərbaycan, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan ərazilərindən şimala, şərqə və qərbə doğru yayıldığına xeyli tarixi faktlar göstərmişik [20, s. 53-82]. Naxçıvan ərazisi oykonimik sistemində 55 etnooykonim bu tayfa adı ilə yaranmış, onlarda xeyli leksik vahidlər adları amorf-kök dil və flektiv dil formasında təqdim edir. Burada bu tayfa adı ilə bağlı nümunə üçün təkcə As+qəm+ər, As+ni, As+ti adlı 3 ada diqqət etsək, bu adlar leksik vahidlərlə yazılışlarında müxtəlif dil formaları ilə özünü təqdim edir.

Birinci Asqəmər adının formalaşmasında **As** tayfa adı, **qam** – "şaman", **ər** – "ər, igid" sözləri

ilə ad “As şaman ər” mənasında kök dil formasında özünü təqdim edir. Biz **Qam** əski türk sözünü qədim türklərin qamçılıq-şamançılıq inancından gəlməklə, “önü görən”, “peyğəmbər”, “lənətləyən” şaman, eləcə də türk dillərində “yıxan”, “aşıran” mənalı sözlər olduğunu görürük. “Köz qamar” ifadəsində isə bu söz “işıq saçan” mənasını verir [3, s. 413-414]. Çeçenlərin mifində **qam** sözünü nağıllarda müsbət ruh kimi görürük. Turdi türkləri tərəfindən Romaya aparılan bu mif m. ö. III əsrdə Roma mifinə “Kamen” kimi daxil olur və o burada bir nəğməkardır [12, t. I, s. 262, 619]. **Kəm/-qam/maq/manq**-şaman leksik vahidi Azərbaycan mifik təfəkküründə geniş yer almaqla m. ö. IX əsrdə Midiyada Maq, Maqtar, Armanqu, Maqta tayfa və şəxs adlarında qalmış [14, s. 92] türk Azərbaycan sözləridir.

Addakı “ər, kişi, igid” mənalarında etnosların, eləcə də toponimik adlar sisteminin adlanması-nominasiyasında həm tayfa adlarını həm də oykonimləri məna çalarına uyğun olaraq etnooykonim kimi formalaşdırır. Biz bu leksik vahidin sub+**ər**, bulq+**ar,** kimm+**er,** quq+**ar**, xəz+**ər**, kanq+**ər**, düg+**ər**, kəb+**ər,** tonq+**ər** kimi tayfa adlarının sonuna əlavə olunduğunu, həm də **ər**+sak, **ər**+tus, **ər**+suk (avar hunlarında), **ar**+an (Anu ərləri – F.R.), **ar**+al, **ar**+alat, **ur**+yat kimi tayfa adlarının əvvəllərinə qoşulduğunu görürük [15, s. 125; 16, s. 17; 18, s. 125-127].

**As** türkləri ilə bağlı **Asni** etnooykoniminin yaranmasında da As tayfa adı və **ni** – “verdi, bağışladı” və “mənim” mənalarında qədim türk sözü Midiya şəxs adlarından Zanasana qədim Kaspi türklərində Anani kimi xeyli sayda adlarda rast gəlirik. Bundan başqa bu söz Oğuz boylarının bir qolu olan Çəpni, Xəzər tayfalarından Tərnə tayfa adlarının adlanması nominasiyasında da özünü göstərir [20, I c., s. 468]. Bunlar nəzərə alındıqda Asni etnooykonimi **As verdi** mənasında tam anlaşılmır və fikrimizcə ad **As verdiyi məkan, yurd** mənasındadır.

**As** türkləri ilə bağlı **Asti** etnooykonimindəki ti/tik leksik vahidi istər M.Kaşğari, istərsə də Radlovun sözlüklərində “tikmək”, “doldurmaq” mənalarındadır [11, s. 614] ki, bu mənalarla oykonim As tikmək – **As tikən** mənasını daşıyır. Diqqət etsək, mənanın ilk variantı *As tikmək* yenə də amorf-kök dil formasındadır.

Biz Naxər türkləri ilə bağlı oykonimlərdə də əski türk leksik vahidlərini izləyirik. Naxçıvan oykonimlərində yer alan Bornax-Bor+nax, Xunax-Xu+nax kimi etnooykonimlərin də mənaları diqqət çəkir. Əgər Bornax – Böri+nax adına diqqət etsək, ad Naxər tayfa adı və **böri** – qurd sözündən yaranmaqla “Qurd Naxlar” mənasında açıqlanır ki, bu türklərdə Qurd mifi ilə bağlıdır. **Bari/böri** – “qurd” mənasını daşıyan bu leksik vahid [3, s. 118] qədim türk dillərində Oğuz və Uyğur inanclarında daha geniş yer alır. “Oğuznamə”də **böri** – “qurd” leksik vahidi ilə dəfələrlə qarşılaşı-rıq [20, I c., s. 465]. Qədim türk şəxs adları – antroponimik sistemində **Böri** Alp, **Böri,** Burna Buriaş [14, s. 58], “**Dədə Qorqud”** dastanımızdakı **Bəybura, Burlaxatun** adlarında da bu mənalar özünü doğruldur.

**Xunax** etnooykoniminə isə 1590-cı ildə Naxçıvan qəzasına tabe olan Abnik nahiyəsində Qurdluca və Abana kəndləri arasında **Kiknax** kimi, daha sonra isə Dərələyəz nahiyəsində 1728-ci ilə aid məlumatlarda Kərinüd və Abana kəndləri arasında **Xunax** şəklində təsadüf edirik [7, s. 58, 177]. Biz sonrakı məlumatlarda bu ada rast gəlmirik. Etnooykonimin tərkibi yuxarıda qeyd etdiyimiz kimi qədim türk sözü olan **ku** – “şanlı, şöhrətli” komponentindən və **“nax”** tayfa adından formalaşmaqla “Şöhrətli Nax” mənasında izah olunur.

Biz Türükkü türkləri ilə bağlı **Tirk/Türk+eş** etnooykonimlərində də qədim türk leksik vahidləri ilə qarşılaşırıq. **Tirkeş** etnooykonimi ilk dəfə Naxçıvan qəzasına daxil olan Dərəşahbuz nahiyəsinin Sələsüz kəndi yaxınlığında 1590-cı ilə aid arxiv sənədlərinə dair məlumatlarda qeydə alınır. Ada 1728-ci ilin məlumatlarında yenə eyni nahiyədə Tirkəş yazılışında rast gəlirik [7, s. 166]. Bu oykonimdə də **ü≈i** səsəvəzlənməsini müşahidə edirik. Məntəqə **Türk** tayfa adı ilə yanaşı **es/eş** – ”zəka, ağıl”, “dost” mənalı söz tərkibləri ilə “Zəkalı Türk” tayfası mənasında açıqlanır. Oykonimdəki **es/eş, us** – “zəka, ağıl”, “dost” sözü xeyli Hərkəs, Tulus kimi oykonimdə də təkrarlanmaqdadır [3, s. 184].

Biz Kuti tayfalarının adından yaranan Kuti+kan, Kuti+il+tavr kimi etnooykonimlərdə də əski

türk sözləri ilə rastlaşırıq. **Kitikian** etnooykoniminə diqqət etdikdə bu məntəqə adı torpaqlarımızın çar Rusiyası tərəfindən işğalından (1822-1823) sonra, 1828-ci ildə Naxçıvan ərazisindən zorla qoparılaraq İrəvan quberniyasına qatılan Qırxbulaq mahalında qeydə alınır [15, s. 70]. Məntəqə adı Kuti+kian tərkiblərindən formalaşmışdır. Tayfa adına qoşulan **kan** komponentinə "**i**" hərfinin sonradan əlavə olunduğunu düşünürük. Bu komponent omonimlik xarakterinə malik olmaqla **kan**- "xan, kağan", eləcə də **a≈u** fonetik paralelliyi ilə **kun** şəklində "yurd, məkan", **kın/qın** yazılışında isə "qala" mənalarında işlənmişdir. Biz Herodotun məlumatlarında **Erikin** (Ərkin – F.R.) torpaqları ifadəsi ilə qarşılaşırıq [13, V c., s. 44-47; VI c., s. 21, 127; VIII c., s. 47]. Burada **Sibaris** şəhəri bu ərazidə olmaqla, söhbət qədim **türk subərlərin** yurdlarından gedir. Biz **kun** – "məkan, yurd", "qala" komponentinə "Ərgənəkon" türk dastanı adında da rast gəlirik. F.Rəşidəddinin tarix haqqındakı məlumatlarında bu tərkib **"Ergine-Kun"** kimi [19, s. 153-154] "Kağan ərlərin yurdu", ola bilsin ki, "qalası" mənasını daşıyırdı (F.R.). Tərkibə "qala" mənasında Midiya, Manna, Atropatenaya aid adlar sistemində **Qin**zin, **Kin**tau, **Kin**qaruki toponimlərində [14, s. 90], "məkan" mənasında Kadır**kan**, Xəzər dənizinin əski adı Qir**kan,** Midiyada Uşuk**kan** hövzə adlı [4, s. 201] toponimlərdə təsadüf edirik. Komponentin "kan" – "xan, kağan" mənalarına isə "Dədə Qorqud" dastanımızda Qam**xan,** Xəzər kağanı Bul**can** [1, s. 25] adlarında bu leksik vahid geniş işlənmişdir. Məntəqə adı "Kuti yurdu" mənasında etnooykonim kimi formalaşmışdır.

**Kuti+il+tavr** etnooykonimindəki **Tavr** sözü isə qədim türk dillərində "var-dövlət", "düşərgə", "möhkəmləndirilmiş qala" mənalarında işlənmişdir [3, s. 542; 14, s. 98]. Biz M.Kaşğari sözlüyündə söz sonuna **a** saiti artırmaqla onun **tavar** yazılışında "mal", "mülk" kimi izahına rast gəlirik [11, s. 586]. Əgər xatırlasaq, qədim türklərin yaşadığı Krım ərazisi Tavr, onun dağları isə Tavr dağları adlanırdı [13, IV c., s. 99-100]. Bu nəzərə alınarsa, sözün "Kuti yurdunun möhkəmləndirilmiş qalası" mənası daha çox həqiqətə uyğundur ki, bu dilimizin qədimliyi ilə yanaşı hələ m. ö. Minilliklər ifadə formalarını da ortaya çıxarır.

Bununla bərabər biz yüzdən yuxarı qədim leksik vahidlərin adlarda yer aldığını görürük ki, bu sözlər digər türk tayfa adları ilə bağlı etnooykonimlərdə də təkrarlanır.

Nümunə olaraq qeyd edək ki, adlarda **Ut, at** qədim türk dillərində həm "yer, məkan", həm də "cəmlik" ifadə edən **at** şəkilçisi bəzən də **t** samiti ilə ayrıca şəkilçi kimi işlənmişdir. Biz prototürklərin dillərində bu şəkilçinin paralel olaraq "cəmlik" və "məkan" mənalarının ifadə etdiyini də görürük [21, I c., s. 284]. Qədim Kas tayfa adının Kassit yazılışında, skiflərin, oğuzların Paralat və Bayat tayfa adlarında [14, s. 136] bu şəkilçi "cəmlik" ifadə edir. Naxçıvan ərazisinin Kur+ut – "Kiur yurdu", Kil+it – "Kol yurdu", Kom+at – "Kam/Qam yurdu", Şur+ut – "Şar tanrısının yurdu" kimi adlarda isə, bu şəkilçi göründüyü kimi "yurd, vətən" mənalarında işlənmişdir.

Eyni hala etnooykonimlərdəki **ze/sa** leksik vahidində də təsadüf edirik. Dilimizin yazıyaqədərki dövrünə aid olan bu komponent qədim türk dillərində "ürək" mənasında, bəzi hallarda isə **zu** yazılışında "bilikli", "müdrik" mənalarında da işlənmişdir. Biz m. ö. III minillikdə qədim Lulubi türklərinin bir çarın Satuni adında bu komponentlə rastlaşırıq [6, s. 78; 14, s. 57;]. Bəzən bu leksik vahid **sa** yazılışında "saymaq", və "sən" mənalarında da işlənmişdir [3, s. 478]. Manna hakimi İran**zu,** Midyada Silxa**zi,** Tiptak**zi**, **Za**ta, An**zi** kimi çoxsaylı şəxs adlarında göstərilən mənalar qalmaqdadır [5, s. 78; 14, s. 103]. Biz peçeneqlərdə Suru Kulbey tayfa adında da bu komponentlə rastlaşırıq [10, s. 91].

Bir çox tədqiqatlarda ermənilərə aid edilmiş qədim türk leksik vahidi **van,** Naxçıvana aid çoxsaylı toponimdə sonluq kimi işlənmiş, adlara qoşulmaqla "yer", "məkan" ifadə edən qədim türk sözüdür. Əgər qədim türk dilləri üçün xarakterik olan **b≈v** fonetik hadisəsini nəzərə alsaq, **"van"** tərkibi "**bun", "ban"** yazılışlarında həm "nəsil, tayfa, tirə, soy", həm də "uca" mənalarını ifadə etmişdir [3, s. 81; 8, s. 94; 17, IV c., 2 h., s. 1813]. Göründüyü kimi bu söz kökü istənilən səs əvəzlənməsi ilə türk dillərinə aid olmuş və bu söz erməni dilinə onlar türklər tərəfindən assimilyasiya olunduqdan sonra adlamışdır. Bunu sübut edən amillərdən biri də **Turk+a+van, Şe/Şu+van, Şir+van, Minc+i+van** kimi çoxsaylı toponimlərdə prototürk Türk, Şu, Şir, Manq kimi tayfa adla-

rının mövcudluğudur. Bundan başqa **Ay+qa+van, Zər+gə+van, İce/izi+van** kimi toponimlərdə isə, sözün başlanğıc köklərinin ay, izi – "isti", zər – "işıq" kimi qədim türk leksik vahidlərindən ibarət olmasıdır. Yuxarıda da qeyd etdiyimiz kimi, Sözdəki **"van"** tərkibi yalnız türklər yaşayan ərazilərdə yer almaqdadır [ətraflı bax: 9, s. 102-103, 469].

**Nəticə.** Bütün bu dil faktlarını ümumiləşdirib nəticə olaraq qeyd edə bilərik ki, əski türk leksik vahidləri və onlardakı ifadə formaları dilimizin tarixi keçmişi ilə yanaşı təkamülünün də danılmaz inkişaf mərhələlərini özündə qoruyub saxlamaqdadır. Burada istər onların məna çalarları, istərsə də quruluş formaları aşağıdakı elmi nəticələri söyləməyə əsas verir.

1. Tayfa adlarının formalaşmasında buradakı leksik vahidlər əsasən canlı isimlərlə bağlı olub, onların bir qədim türk tayfası olduğunu sübut edir.

2. Antroponimik şəxs adlarının formalaşmasında da bu sözlər adların müasir dilimizdəki Tanrıverdi, Xudayar, Allahqulu kimi adlarda olduğu kimi mifoloji inancları da özündə qoruyub saxlamasında əsaslı yer alır.

3. Adların quruluşundakı amorf-kök dil, flektiv dil formaları, müasir iltisaqi dillərin tarixi təkamül yolunun əsl elmi sübutları olmaqla, dilimizin bu mərhələləri adlayıb sabitləşmiş ən qədim dil olduğunun da elmi sübutudur.

Bu istiqamətdə tədqiqatların aparılması, gec-tez dilimizin ən qədim dil olmaqla, bu mərhələləri adlayaraq ən qədim dil kimi dillər arasında yer aldığını sübut edən elmi tədqiqat metodudur ki, biz bunu toponimik sistemin tədqiqi ilə beynəlxalq aləmə çatdıra bilərik.

## ƏDƏBİYYAT

1. Артаманов М.И. Истории Хазар. Ленинград: Изд-во Гос. Эрмитажа, 1962, 523 с.
2. Cəlilov F.A. Azər xalqı. Bakı: Çıraq, 2005, 432 s.
3. Древнетюркский словарь. Ленинград: Наука, 1969, 676 с.
4. Дьяконов И.М. Люди города Ура. Москва: Наука, 1990, 429 с.
5. Дьяконов И.М. Языки древней Передней Азии. Москва: Наука, 1967, 277 с.
6. Емельянов В.В. Ритуал в древней Месопотамии. СПб.-Л.: Петербургское востоковедение, 2003, 320 с.
7. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
8. Kitabi-Dədə Qorqud. Bakı:Yaziçi, 1988, 265 s.
9. Kırzıoğlu F. Kars tarihi. I c., İstanbul: Işıl Matbaası, 1953, 640 s.
10. Kırzıoğlu F. Yukarı Kür ve Çoruk boylarında Kıpçaklar. Ankara: Türk Tarih Kurumu Basımevi, 1992, 278 s.
11. Kaşğari M. Divanü lüğat-it-türk. Ankara: Basımevi, 1985, 887 s.
12. Мифы народов мира: Энциклопедия. Т. I, Москва: Советская энциклопедия. 1987, 671 с.
13. Qeybullayev Q.A. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı: Azərnəşr, 1994, 278 s.
14. Qeybullayev Q.A. Qədim türklər və Ermənistan. Bakı: Azərnəşr, 1992, 138 s.
15. Геродот. История / Пер. и примеч. Г.А.Стратановского. Ленинград: Наука, 1972, 599 с.
16. Osmanlı Arşiv Belgelerinde Nahçıvan. İstanbul: Seçil Ofset, 2011, 568 s.
17. Радлов В.В. Опыт словаря тюркских наречий. Т. IV, ч. II, Москва: Госиздат, 1893-1911, 2230 с.
18. Özdək R. Türkün qızıl kitabı. I c., Bakı: Yazıçı, 1992, 184 s.
19. Рашид ад-Дин. Сборник летописей. Т. 1, кн. 1 / Перевод с персидского Л.А.Хетагурова, Москва-Ленинград: Изд. АН СССР, 1952, 253 с.
20. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c., Bakı: ADPU, 2013, 528 s.
21. Севортян Э.В. Этимологический словарь тюркских языков. Т. I, Москва: Наука, 1974, 777 с.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: firudinrzayev@gmail. com***

**Firudin Rzayev**

## ANCIENT TURKIC LEXICAL UNITS IN THE FORMATION OF NAMES OF PROTO-TURKIC TRIBES IN THE TERRITORY OF NAKHCHIVAN

The article examines lexical units associated with the formation of ethno-oikonyms in the territory of Nakhchivan, related to the ancient Turkic tribes of the VI-I millennia BC. Ancient Turkic lexical units related to the Turks of the tribes of As, Turks, Nakher, Kuti and others, which are also mentioned in the studies, have survived to this day in the ethno-oikonyms of the territory. These ancient lexical units have not been systematically studied by Azerbaijani and Turkish scientists by period.

Based on dictionaries of the Turkish language, the article confirms the presence of ancient lexical units in the names as+ni, as+kam+er, turk+an, tirk+esh, kuti+kan born+nah in the oikonymic system in the territory of ancient Nakhchivan. The tribes that carry these ancient lexical units are repeated in the original version in the oikonyms, oronyms and hydronyms of the entire toponymic system of Nakhchivan.

The fact that these lexical units are preserved in the names associated with the proto-Turks proves the antiquity of our language. These lexical units have occupied a large place in the ethno-oikonyms, both in Nakhchivan and among other Turks. In the course of research, new scientific results were obtained proving the antiquity of the language of our people.

**Keywords:** *As, Türükkü, Kuti, Naxer, Nakhchivan, ethno-oikonym, ancient lexical units.*

**Фирудин Рзаев**

## ДРЕВНЕТЮРКСКИЕ ЛЕКСИЧЕСКИЕ ЕДИНИЦЫ В ФОРМИРОВАНИИ НАЗВАНИЙ ПРОТОТЮРКСКИХ ПЛЕМЕН НА ТЕРРИТОРИИ НАХЧЫВАНА

В статье рассматриваются лексические единицы, связанные с формированием этноойконимов на территории Нахчывана, относящиеся к древнетюркским племенам VI-I тысячелетий до н. э. Древнетюркские лексические единицы, относящиеся к тюркам племен ас, тюрюккю, нахер, кути и другим, которые также упоминаются в исследованиях, сохранились до наших дней в этноойконимах территории. Эти древние лексические единицы не были систематически изучены азербайджанскими и турецкими учеными по периодам.

В статье на основе словарей турецкого языка подтверждается наличие древних лексических единиц в именах ас+ни, ас+кам+эр, тюрк+ан, тирк+эш, кути+кан борн+нах в ойконимической системе на территории древнего Нахчывана. Племена, несущие эти древние лексические единицы, повторяются в оригинальном варианте в ойконимах, оронимах и гидронимах всей топонимической системы Нахчывана.

Тот факт, что эти лексические единицы сохраняются в названиях, связанных с прототюрками, доказывает древность нашего языка. Эти лексические единицы заняли обширное место в этноойконимах, как в Нахчыване, так и у других тюрков. В ходе исследований были получены новые научные результаты, доказывающие древность языка нашего народа.

**Ключевые слова:** *Ас, Тюрюккю, Кути, Нахер, Нахчыван, этноойконим, древние лексические единицы.*

*(AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev tərəfindən təqdim edilmişdir)*

**Daxiloma tarixi: İlkin variant 22.09.2025**
**Son variant 17.10.2025**